# Qələbəyə aparan hərbi, strateji, diplomatik uğurlar



***Y**eddi il bundan əvvəl zamanın Azərbaycan qarşısında qoyduğu dilemma belə idi: qarşıdakı yolun mürəkkəbliyi və qarşıya qoyulmuş məqsədin aliliyi, beynəlxalq qaydalara riayət edilməsi, iki yüz illik erməni işğalına son qoymaq, ərazi bütövlüyünü və suverenliyi təmin etmək, qara bir ləkəni xalqın tarixindən silmək. Göründüyü kimi, çox fədakarlıq və cəsarət tələb edilən məsələləri həll etməyə yalnız xalqın inam bəslədiyi Lider nail ola bilərdi. İlk dəfə olaraq 2018-ci ildə iqtidar Yeni Azərbaycan Partiyası növbədənkənar prezident seçkilərinin keçirilməsi təşəbbüsü ilə çıxış etdi. Həmin təşəbbüsə uyğun olaraq fevralın 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin elan edilməsi haqqında" Sərəncam imzaladı. Sərəncama əsasən seçkilər 2018-ci il aprelin 11-nə təyin edildi. Azərbaycan cəmiyyətində və eləcə də onun hüdudlarından kənarda suallar yaratdı ki, növbədənkənar prezident seçkilərinin keçirilməsini zəruri edən nə olub?! Növbədənkənar prezident seçkilərinin keçirilməsi bir sıra amillərdən irəli gəlmişdi. Hər şeydən əvvəl, Azərbaycan ərazilərinin uzun illər boyu davam edən işğalına tezliklə son qoymaq üçün dövlətin daha da gücləndirilməsinə, ölkə daxilində islahatları sürətləndirərək çevik idarəetmənin qurulmasına, millətin hakimiyyətə etimadının bir daha sınaqdan çıxarılmasına, güvənməsinə əmin olmaqdan ötrü növbədənkənar seçkilərin keçirilməsi zəruri idi. Digər tərəfdən, yaranmış mürəkkəb beynəlxalq şərait, müxtəlif dövlətlər arasında münasibətlərin gərginləşməsi çevik addımların atılmasını zəruri etmişdi.*

2018-ci il aprelin 11-i. Alternativ əsaslarla, 8 nəfər namizədin iştirakı ilə keçirilən seçkilərdə son 3 seçkinin - 2003, 2008 və 2013-cü il seçkilərinin qalibi - hakim Yeni Azərbaycan Partiyasının (YAP) sədri və prezidentliyə namizədi İlham Heydər oğlu Əliyev parlaq qələbə qazandı. Xalqın namizədi bütün rəqiblərini geridə qoyaraq, Azərbaycan xalqının mütləq əksəriyyətinin səsini qazandı və 86,02 faizlə yenidən - 4-cü dəfə Azərbaycan Respublikasının Prezidenti seçildi və aprelin 18-də Milli Məclisdə andiçmə mərasimi keçirildi. Seçkilərin şəffaflığını və demokratikliyini təmin etmək üçün 61 təşkilat və 59 ölkədən 890-dan çox beynəlxalq müşahidəçi, habelə 51 beynəlxalq KİV-in 118 nümayəndəsi seçkiləri izləyib. Yerli müşahidəçilərin sayının da 59 minə yaxın olduğunu və ölkə üzrə 5641 məntəqənin yaradıldığını nəzərə alsaq, hər bir məntəqəyə 10-dan çox müşahidəçi düşüb. Müşahidəçilərdən 15 minə yaxını öz təşəbbüsü ilə qeydiyyatdan keçən vətəndaşlar olublar. Aprel ayının 11-də Qarabağ bölgəsində mətbuat nümayəndəsi kimi prezident seçkisinin gedişini izləyirdim. Məcburi köçkünlərin sıx məskunlaşdıqları qəsəbələrdə təşkil olunmuş seçki məntəqələrinə axın-axın insan gəlirdi. Həqiqət naminə deyək ki, adamların əhvali-ruhiyyəsi çox yüksək idi, bəlkə də adamların ürəyinə bir arzu hakim kəsilmişdi, torpaqları işğaldan yalnız İlham Əliyev azad edə bilər! Ağsaqqal bir kişinin bülleteni qutuya salandan sonra dediyi sözlər heç vaxt yadımdan çıxmır. 25 ildən artıq məcburi köçkün həyatı yaşayan ağsaqqal inamla bildirdi ki, Prezidentimiz İlham Əliyev torpaqlarımızı işğalçılardan mütləq azad edəcəkdir. Mən buna inanıram. Sözün açığı təkcə ağsaqqal yox, minlərlə insan bu inamda idi. Çünki ötən illər ərzində Prezidentin həmişə xalqa müraciətində belə bir fikir qırmızı xətt kimi keçib: Azərbaycan heç vaxt öz əzəli torpağında ikinci qondarma erməni dövlətinin yaradılmasına imkan verməyəcək, Dağlıq Qarabağ heç vaxt müstəqil olmayacaqdır. Andiçmə mərasimindəki nitqində Prezident İlham Əliyev hədəfləri müəyyənləşdirdi: "...biz öz torpaqlarımızı azad edəcəyik". Zaman liderin haqlı qərarını təsdiq etdi, qəhrəman oğulların şücaəti ilə Qarabağ və Şərqi Zəngəzur işğalçılardan azad edildi, düşmən Ermənistan ağ bayraq qaldıraraq kapitulyasiya aktına imza atmağa məcbur oldu.

Prezident seçkiləri xalqın böyük coşqusu ilə inamlı qələbə ilə başa çatdı və Azərbaycanda yeni dövrün başlandığı heç kəsdə şübhə doğurmadı. Dünyanın 3 nəhəng ölkəsinin liderindən - ABŞ prezidenti Donald Tramp, Rusiya prezidenti Vladimir Putin və Çin lideri Si Cinpindən İlham Əliyevə ünvanlanmış təbrik məktubları gəldi. Hər üç liderin təbrik məktubunda Azərbaycanla və onun lideri İlham Əliyevlə növbəti mərhələdə də əməkdaşlıqdan məmnunluq ifadə olundu. Bunun ardınca Fransa prezidenti Emmanuel Makron, Böyük Britaniya baş naziri Tereza Mey, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan, İran İslam Respublikasının prezidenti Həsəni Ruhani və digər dövlət başçıları tərəfindən ölkə Prezidentinə ünvanlanan təbrik məktubları Prezident İlham Əliyevin strategiya və diplomatiyasına verilən yüksək qiymət idi. Seçkilərdən az sonra baş vermiş hadisələrin xronologiyasına nəzər salaq. Prezident mayın 4-də Xızı və Xaçmaz, iyunun 5-də Goranboy və Naftalan rayonlarına, mayın 16-da Naxçıvan Muxtar Respublikasına səfərlər etdi və bir sıra obyektlərin açılışlarına qatıldı. Bununla bərabər, ölkə prezidentinin bu qısa müddətdə bir neçə aparıcı ölkəyə rəsmi və işgüzar səfərləri baş tutdu. Bu sırada aprelin 26-da Böyük Britaniyaya , TANAP-ın açılış mərasimi ilə bağlı iyunun 12-də Türkiyə səfərləri, 10-13 iyulda Brüsselə və 19-20 iyulda Fransaya səfəri qeyd etmək olar. Ən əsası isə Başlıca hədəfə doğru inamlı addımlar atıldı. Növbədənkənar prezident seçkilərindən sonra ölkə yeni inkişaf mərhələsinə qədəm qoydu. Həmin mərhələ islahatların dərinləşdirilməsi və təcavüzkar Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsinə son hazırlıq işləri ilə səciyyələnirdi. Seçkidən az sonra 2018-ci il mayın 20-dən 27-dək Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Günnüt kəndi istiqamətində həyata keçirilən əməliyyat nəticəsində Naxçıvan Əlahiddə Ümumqoşun Ordusu Günnüt kəndini, Ağbulaq yüksəkliyini, Qızılqaya və Qaraqaya dağını işğaldan azad etdi. Dərələyəz mahalının Arpa kəndi Azərbaycan Ordusunun nəzarəti altına keçdi. Ümumi olaraq 11 min hektarlıq ərazi işğaldan azad edildi. Uğurlu hərbi əməliyyat Azərbaycan Silahlı Qüvvələrinə İrəvan - Keşişkənd (Yexeqnadzor) - Gorus - Laçın - Xankəndi avtomobil yoluna nəzarət etməyə imkan verdi. Mayın 28-də müstəqil Azərbaycan dövlətinin - Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) yaranmasının yüz illiyi rəsmi dövlət səviyyəsində qeyd olundu. Dövlət başçısı həmin gün təntənəli qəbul mərasimi keçirdi və çıxışında bir daha Cümhuriyyət qurucularına öz ehtiramını ifadə etdi: "Azərbaycan dövləti Azərbaycan Xalq Cümhuriyyətinin qurucularının xatirəsinə böyük hörmətlə yanaşır...". Mayın 29-da daha bir tarixi anlara şahid olduq. Ölkə Prezidentinin iştirakı ilə mayın 29-da, nəinki regionun, bütövlükdə dünyanın enerji təhlükəsizliyində önəmli yerə malik olan Cənub Qaz Dəhlizinin (CDQ) Səngəçal terminalında rəsmi açılış mərasimi keçirildi. Prezident çıxışında bəyan etdi ki, "Cənub Qaz Dəhlizinin rəsmi açılışı onu göstərir ki, biz qarşımıza qoyduğumuz bütün hədəflərə çatdıq və bu gün ölkəmizin həyatında neft-qaz sənayesinin inkişafında yeni dövr başlayır...". Eyni zamanda dövlət başçısının mayın 24-də imzaladığı növbəti əfv Sərəncamı ilə daha 634 məhbus azadlığına qovuşdu. İyunun 12-də isə Azərbaycan Prezidenti İlham Əliyev Türkiyənin Əskişəhərində bir sıra dövlət başçılarının da qatıldığı TANAP - Trans-Anadolu qaz kəmərinin istifadəyə verilməsi münasibətilə təşkil edilmiş təntənəli mərasimdə iştirak etdi və bu kəməri "yeni qan damarı" adlandırdı. İki qardaş dövlət, Azərbaycanın və Türkiyənin birgə səyləri və iradəsi nəticəsində bu kəmər həyata vəsiqə qazandı. Azərbaycan Ordusunun yaranmasının yüz illiyi və bununla bağlı 26 iyun Milli Ordu Günündə Bakı şəhərində, Azadlıq meydanında tarixi Hərbi Paradın keçirilməsi gücün və iradənin nümayişi oldu. Həmin gün xalqımızla yanaşı, bütün dünya Azərbaycan ordusunun bir daha gücünə, qüdrətinə şahidlik etdi.

Düşmən qüvvələr bu möhtəşəm qələbəni həzm edə bilmədilər, təxribata və terrora əl atdılar. Belə ki, 3-4 iyul və 10 iyul tarixlərində baş verən, yaşanan hadisələrə qarşı atılan addımlar Azərbaycan dövlətinin və dövlətçiliyinin nə qədər güclü və etibarlı əllərdə olduğunu bütün dünyaya nümayiş etdirdi. İyulun 2-dən 3-nə keçən gecə Mingəçevirdə yerləşən "Azərbaycan" İES-dəki yarımstansiyalardan birində güclü qəzanın baş verməsi ilə ölkənin enerji sistemində ciddi fəsadlar yaşandı. Ancaq dövlət başçısı tərəfindən qəzanın aradan qaldırılması məsələsi birbaşa nəzarətə götürüldü. İyulun 4-də dövlət başçısı ölkənin enerji sistemindəki yaranmış vəziyyətlə bağlı müşavirə keçirdi. Bir daha xalqı, dövləti ilə bir yerdə olduğunu nümayiş etdirdi, nöqsanlara, ciddi xətalara yol verən qurumlarla və məsul şəxslərlə bağlı güzəştsiz mövqe sərgilədi.

Andiçmə mərasimindəki nitqində Prezident İlham Əliyev deyib: - Mən həmişə Azərbaycan xalqının dəstəyini hiss etmişəm və hiss edirəm. Bu dəstək mənə güc verir. Mən bu dəstəyə arxalanıram və xalqı bir daha əmin etmək istəyirəm ki, bundan sonra da xalqa və Vətənə ləyaqətlə xidmət edəcəyəm. Azərbaycanda sabitliyin təminatçısı Azərbaycan xalqıdır və bizim siyasətimizdir. Bu gün Cənubi Qafqaz regionunun iqtisadiyyatının təxminən 70 faizi Azərbaycanın payına düşür. Ötən 15 ildə Azərbaycan, həmçinin strateji valyuta ehtiyatlarını 24 dəfə artıraraq 44 milyard dollara çatdırmağa nail olub. Ölkənin qarşısında yeni hədəflər, yeni məqsədlər dayanır. Perspektivlə bağlı fikirlərini ifadə edən Prezident İlham Əliyev deyib: "Növbəti illərdə görüləcək işlər haqqında bizim çox aydın təsəvvürümüz, planlarımız, proqramlarımız var. Biz qeyd etdiyim sahələr üzrə səylərimizi davam etdirəcəyik, Azərbaycanı daha da qüdrətli ölkəyə çevirəcəyik. Hər bir sahə üzrə bizim konkret proqramlarımız, planlarımız var. Həm beynəlxalq məsələlərlə, həm bölgələrimizin möhkəmləndirilməsi, siyasi-iqtisadi islahatların dərinləşməsi, sosial siyasət, ordu quruculuğu ilə bağlı bizim konkret proqramlarımız var. Güclü siyasi iradə, böyük maliyyə resurslarımız var. Biz bu maliyyə resurslarını öz əlimizlə yaratmışıq və biz indi öz hesabımıza yaşayırıq. Xalq-iqtidar birliyi var. Ona görə mən əminəm ki, bütün Azərbaycan xalqı və biz hamımız gələcəyə çox böyük nikbinliklə baxırıq. Hamımızın amalı ondan ibarətdir ki, ölkəmiz daha da güclənsin, daha da qüdrətli dövlətə çevrilsin, Azərbaycan vətəndaşları daha da yaxşı yaşasınlar".

Tarixi və yaxın zamanı təhlil etmək üçün Prezident İlham Əliyevin andiçmə mərasimindəki nitqi ən dəyərli və qiymətli mənbədir. Prezident bildirib ki, 2018-ci ildə bax bu kürsüdən andiçmə mərasimində demişdim ki, Ermənistan-Azərbaycan münaqişəsi yalnız və yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır, heç vaxt Azərbaycan xalqı öz ərazisində ikinci erməni dövlətinin yaradılmasına imkan verməyəcək və nəyin bahasına olursa-olsun biz öz doğma torpaqlarımızı azad edəcəyik. O gündən cəmi 2 il yarım keçdi və Azərbaycan xalqı bir yumruq kimi birləşərək Vətən müharibəsi nəticəsində torpaqlarımızın böyük hissəsini azad etmişdir, 300-dən çox şəhər və kənd azad olunmuşdur, o cümlədən bizim mədəniyyət paytaxtımız Şuşa şəhəri işğalçılardan azad edilmişdir. Biz qan tökərək, şəhidlər verərək tarixi ədaləti bərpa etdik. İkinci Qarabağ müharibəsi şanlı tariximizdir. Prezident qeyd edib ki, mən dəfələrlə müxtəlif tədbirlərdə, eyni zamanda Ermənistan rəhbərliyi ilə, onlara dəstək verən böyük dövlətlərin rəhbərləri ilə söhbətlər əsnasında deyirdim ki, Azərbaycan heç vaxt bu vəziyyətlə barışmayacaq. Deyirdim ki, nə qədər gec deyil, Ermənistanı inandırın və özünüz də lazımi addımlar atın ki, bu işğala son qoyulsun. Ancaq əfsuslar olsun ki, bütün çağırışlarım, bütün xəbərdarlıqlarım havada qaldı. Sanki kimsə hesab edirdi ki, Azərbaycan xalqı bu işğalla barışmalı olacaq. Biz isə döyüş meydanında göstərdik ki, nəyə qadirik. Biz döyüş meydanında cəmi 44 gün ərzində Ermənistan ordusunu tamamilə darmadağın etmişdik. Elə günə salmışdıq ki, özlərinin etirafına görə, 12 mindən çox fərarisi olmuşdur. Azərbaycan Ordusundan bir nəfər də döyüş meydanını tərk edib qaçmamışdır. Bu, bir daha Azərbaycan xalqının əyilməz ruhunu göstərir.

Prezident seçkisindən 2 il 7 ay sonra Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycanın qəhrəman oğullarının fədakarlığı sayəsində 30 ilə yaxın işğal altında qalan torpaqlarımız azad edildi. İnsanların inamı öz təsdiqini tapdı, ümidlər doğruldu. Bu şanlı qələbə Azərbaycan tarixində əbədi qalacaqdır. Qalib Ali Baş Komandan həm döyüş meydanında, həm də danışıqlar masası arxasında bu tarixi qələbəyə nail olub. Ordumuzun qəhrəman döyüşçüləri Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Şuşa şəhərlərini və digər əraziləri, eyni zamanda 300-dən artıq kəndi hərbi güc hesabına azad ediblər. Bütün dünya gördü ki, Azərbaycanın gücü nədən ibarətdir. Həm siyasi sahədə, həm hərbi quruculuq sahəsində. Hərbçilərimizin peşəkarlığı sayəsində müharibənin ilk günlərindən üstünlük əldə olundu. Sərkərdəsi qoçaq olan ordu heç zaman basılmaz, məğlub olmaz. Qəhrəman oğulların igidliyi və Prezident İlham Əliyevin qətiyyəti, fədakarlığı sayəsində xalqımızın şərəfi, qüruru özünə qaytarılıb. Şəhidlərimizin qisası alınıb, onların qanı tökülən torpaqları Vətən etdik. Antiterror əməliyyatı qaçılmaz idi. 2023-cü ilin sentyabr ayında keçirilmiş antiterror əməliyyatı bir daha Silahlı Qüvvələrimizin gücünü göstərdi. Cəmi bir neçə saat ərzində Ermənistan ordusunun təxminən 15 minlik ekspedisiya korpusu tamamilə iflic vəziyyətinə salınmışdır və onlar ikinci dəfə kapitulyasiya aktına imza atmağa məcbur olmuşlar. Bununla da Azərbaycan ərazisində separatizmin kökü kəsildi. Bununla da Azərbaycan həm öz ərazi bütövlüyünü, həm də dövlət suverenliyini tam bərpa etdi. Prezident İlham Əliyev güclü dövlətin mövcudluğunun vacibliyi haqqında deyib: "Eyni zamanda biz yaxşı bilirik və bunu tarix, yaxın tarix və bölgədə gedən proseslər göstərir ki, bir çox hallarda beynəlxalq hüquq normaları işləmir. Kim güclüdür, o da haqlıdır... Demək olar ki, son 15 il ərzində beynəlxalq davranış qaydaları dəyişdi, beynəlxalq hüquq normaları arxa plana keçdi. Güc amili daha önəm qazandı. Bu, reallıqdır. Biz real həyatda yaşayırıq və reallıqla hesablaşmalıyıq".

2018-ci ildə keçirilən növbədənkənar prezident seçkisindən 7 il ötür. Bu yeddi il tarixi hadisələrlə zəngin olub. Növbəti dəfə böyük səs çoxluğu ilə Azərbaycan Prezidenti seçilən İlham Əliyev seçki zamanı vəd etdiyi islahatları sürətlə icra etməyə başlayıb. İslahatların gətirdiyi uğurlar göz qabağındadır, dəyişikliklər cəmiyyət tərəfindən razılıqla qarşılanır. Müharibə aparmış ölkənin iqtisadi və hərbi inkişafı heç də inkişaf edən başqa ölkələrdən geri qalmır. Qalib Ali Baş Komandan Prezident İlham Əliyev son iki əsrdə torpaqlarımızı işğalçılardan azad edən ilk sərkərdə kimi öz adını tarixə yazıb. Uzun illər məcburi köçkün həyatı yaşayan insanların kədərli gözlərində indi sevinc bərq vurur, doğma yurd yerlərinə qayıdırlar. Qələbə bu insanlara inam, ümid, xoşbəxt gələcək, işğaldan azad edilən yurd yerlərini qurub-yaratmaq eşqi gətirib.

Azərbaycan indi bölgədə sülh və sabitliyin təminatçısı, həm də qalib ölkə kimi tanınır, söz sahibinə çevrilir, diplomatiya da uğurlarını get-gedə artırır. Bu vacib amil yalnız Azərbaycan Prezidenti İlham Əliyevin siyasi bacarığı, səmimi münasibəti, dostluğu, qətiyyətli mövqeyi, ən əsası isə dövlətinə və xalqına sonsuz məhəbbəti ilə araya-ərsəyə gətirilib. Bir vacib faktı da qeyd etməliyik. Azərbaycanın kosmosda iki peyki var. Əslində Prezidentin hər hansı tərifə ehtiyacı olmasa da, sadə vətəndaşların ürəkdən gələn sözləri ümumxalq məhəbbətinin sədası kimi qəbul edilə bilər. Ürəklərdəki məhəbbətin qarşısını isə zənnimizcə, heç bir qüvvə ilə almaq mümkün deyil.

**Salman ALIOĞLU,**
**"Respublika".**